# ÇAR RUSİYASI DÖVRÜNDƏ AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

***i.f.d. Ceyhun Məmmədov,***
*Azərbaycan İlahiyyat İnstitutunun rektoru*
ceyhunmammadov@ait.edu.az

## XÜLASƏ

Məqalədə Çar Rusiyası dövründə Azərbaycanda dövlət-din münasibətlərindən, bu sahədə həyata keçirilən dövlət siyasətindən bəhs edilir. Bu mərhələnin Azərbaycan tarixinin ən mürəkkəb və ağrılı dövrlərindən biri olduğu qeyd edilir.

Çar Rusiyasının Azərbaycanı işğal etdikdən sonra, burada apardığı din fəaliyyətinin müstəmləkəçilik siyasətinin tərkib hissəsinə çevrilməsindən, müstəmləkəçi idarə aparatının Şimali Azərbaycanı mümkün qədər çox talan etmək, burada milli dövlətin yaranmasına imkan verməmək, forpostlarını daha da gücləndirmək prinsiplərini etnik-dini qısqanclıqla etmələrindən bəhs olunur.

Həmçinin, Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq Rusiya İmperiyasının, həmçinin bəzi Avropa dövlətlərinin çoxdankı planın olması və bunun reallaşdırılması üçün mərhələ-mərhələ məkirli işlərin görüldüyü barədə geniş məlumat verilir.

Azərbaycanlıların “ruslaşdırılması” və “xristianlaşdırılması” məqsədilə görülən işlər, “köçürülmə” siyasəti barədə, eyni zamanda müxtəlif bölgələrin nümayəndələri, dindar əhaliyə münasibətdə ayrı-seçkiliyə yol verilməsi, onların hüquq və imtiyazlarının məhdudlaşdırılması, təqib olunmaları, sürgün və edama məruz qalmaları qeyd olunur.

Çar Hökuməti dövründə qəbul edilən sənədlər, din xadimlərinin təhsil almaq hüquqları, şeyxülislamlıq və müftilik təsisatlarının vəzifələri barədə geniş məlumat verilir və həmin dövrdə Azərbaycan elminə və mədəniyyətinə töhfələr verən ziyalılarımızın fəaliyyəti öz əksini tapır.

Sonda Çar Hökumətinin bütün cəhdlərinə baxmayaraq, Azərbaycan xalqının öz adət-ənənələrindən, dini etiqadından uzaqlaşmadığı, mənəvi dəyərlərini qoruyub saxladığı vurğulanır.

***Açar sözlər:*** *Çar Rusiyası, siyasət, dini etiqad, qadağa, İslam.*

## Giriş

Azərbaycan tarixinin ən mürəkkəb və gərgin dövrlərindən birini Azərbaycanın Çar Rusiyası tərəfindən işğalı illəri təşkil edir. Bu ağrılı mərhələ Azərbaycan tarixində dərin və ağır izlər buraxmış, ictimai və siyasi həyatda ciddi dəyişikliklərə səbəb olmuşdur. Bu dövrdə Çar Rusiyası Azərbaycanda dini duruma təsir göstərmək üçün müxtəlif üsullardan istifadə edirdi. İmperiya maraqlarını təmin etmək üçün bir tərəfdən əhalinin xristianlaşdırılması, digər tərəfdən müsəlmanlar arasında məzhəb fərqini şişirtməklə sünnilərlə-şiələri bir-birlərinə qarşı qoymaq siyasəti həyata keçirilirdi. Eyni zamanda, dindar əhaliyə münasibətdə ayrı-seçkiliyə yol verilir, onların hüquq və imtiyazları məhdudlaşdırılır, təqib, sürgün və edama məruz qalırdılar. Bu dövrdə işğala qarşı çıxanların önündə, əsasən, ruhanilər gedir, əksər vaxtlarda etirazların təşkilatçısı, bir çox hallarda isə rəhbəri olurdular. Bu reallıqları nəzərə alaraq, Çar Rusiyası dinlə bağlı bir sıra qərarlar qəbul etdi, yeni dini idarələr yaratdı.

Çar Rusiyasının istilası öz təsirini sonrakı dövrlərdə elm, mədəniyyət, iqtisadiyyat və kənd təsərrüfatı kimi bir çox sahələrdə də göstərdi. Qeyd olunan sahələrdə bir çox ciddi dəyişikliklər baş verdi, yeni təlimat və qanunvericilik aktları hazırlandı.

## Azərbaycanın istilasının ilk illərində dinə münasibət

XIX əsrin əvvəllərində Azərbaycan tarixində yeni bir mərhələ başlandı. Ruslar Qafqazı, o cümlədən, Azərbaycanı mərhələli şəkildə istila etməyə başladılar. Xanlıqlar arasında birlik olmadığı üçün onlar öz qüvvələrini birləşdirib düşmənə güclü müqavimət göstərə bilmədilər. Azərbaycan tezliklə işğal olundu. İranın həyata keçirdiyi əks tədbirlər təsirli olmadı. İngiltərə və Fransanın da Rusiyanın istilaçılıq iddialarına qarşı yönəlmiş cəhdləri nəticə vermədi və bölgə bütövlükdə Çar Rusiyasının nəzarətinə keçdi (Əliyev 1998, 82).

Çar Rusiyası 1803-cü ildə ərazisi böyük hərbi-strateji əhəmiyyətə malik olan Car-Balakən camaatını özünə tabe etdirdi. 1804-cü ildə Gəncə xanı Cavad xanın bütün səylərinə və müqavimətinə baxmayaraq, güclərin bərabərsizliyi səbəbindən Gəncə işğala məruz qaldı və şəhərin adı dəyişdirilərək Yelizavetpol adlandırıldı. Tezliklə Şəki və Şirvan xanlığı da ruslar tərəfindən işğal edildi (Гусейнов, Вердиева 2000, 90-91).

1805-ci ildə isə əzəli Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzur işğal edildi. Bu hadisələr Qafqaz uğrunda Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinin başlamasına səbəb oldu. Bu müharibələr nəticəsində Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri imzalandı və Azərbaycanın şimal hissəsi Rusiyanın tərkibinə daxil edildi (Seyidzadə 1998, 5).

Çar Rusiyası Şimali Azərbaycanı işğal etdikdən sonra, burada apardığı din fəaliyyəti müstəmləkəçilik siyasətinin tərkib hissəsinə çevrildi. Bu siyasətin həyata keçirilməsində əsas məqsəd müsəlman əhalini, onun dinini, din xadimlərinin fəaliyyətini gələcəkdə bütövlükdə nəzarət altına almaq və xristianlığın yayılması üçün əlverişli zəmin yaratmaq idi. Belə ki, xristianlığı yaymaq məqsədilə rus çarı I Aleksandr 1806-cı il dekabrın 25-də şotland missiyasına müsəlman əyalətlərində sərbəst fəaliyyət göstərmək və müsəlmanları xristianlığın istənilən məzhəbinə cəlb etmək hüququ vermişdi (İsgəndərov, Mövlayi 2016, 146).

Bu məqsədlə, Çar Rusiyası XIX əsrin 30-cu illərinədək Qacarlar dövlətinin və Osmanlı İmperiyasının tərkibində yaşayan ermənilərin, o cümlədən, özünün təsiri altındakı ərazilərdə məskunlaşmış almanların, bidətçi təriqətlərə mənsub rusların Azərbaycan ərazilərinə köçürülməsi planını həyata keçirərək məqsədli şəkildə xristianlaşdırma siyasəti aparmışdır (Kərimova, Axundov və b. 2018, 6).

**Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi**

Azərbaycan torpaqlarının bölüşdürülməsi məqsədi ilə Rusiya İmperiyası və Qacarlar dövləti arasında 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinə əsasən, ermənilərin İrandan Azərbaycana köçürülmələrinə lazımi şərait yaradılmışdı. Bu dövrdə nəinki ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinə imkan verilir, hətta burada daimi məskunlaşmaları üçün onlara böyük güzəştlər də edilirdi. Rus tədqiqatçısı K.N.Şavrov yazırdı: “1828-1830-cu illər ərzində biz Cənubi Qafqaza 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürdük, onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirdik, onlara 200 min desyatindən çox xəzinə torpağı ayrıldı” (Orucov 2012, 138).

Bu fakt onu göstərir ki, köçürülən ermənilər, əsasən, ermənilər yaşamayan və ya az erməni yaşayan ərazilərdə yerləşdirildilər. Buradan belə məlum olur ki, XIX əsrin əvvəllərinə, xüsusilə Türkmənçay müqaviləsinə qədər Azərbaycanın Gəncə və İrəvan quberniyalarında ermənilərin sayı çox az olmuşdur. Beləliklə, Türkmənçay müqaviləsindən sonrakı iki ildə Çar Rusiyasının himayədarlığı nəticəsində ermənilər Azərbaycanın müxtəlif yerlərində, o cümlədən, Qarabağın dağlıq hissəsində məskunlaşmağa nail oldular. Çarizmin ermənilərə olan bu himayədarlığı sonrakı illərdə də özünü göstərdi (Həsənov 2017, 8).

XIX əsrin əvvəlində Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra, çarizm burada öz müstəmləkəçilik siyasətini daha da dərinləşdirmək məqsədilə bəzi tədbirlər həyata keçirməyə başladı. Bu tədbirlərdən biri

yerli əhalinin - azərbaycanlıların dini etiqadına təsir göstərmək, onları həm hüquqi-siyasi, həm də mənəvi-psixoloji cəhətdən rus çarizminin müstəmləkəçilik qaydalarına tabe etdirməkdən ibarət idi (Hüseynov 2012, 28).

Çarizmin Qafqazı işğal etmək siyasəti torpaqların ilhaqı və yerli idarəçiliyin ləğv edilməsi ilə kifayətlənmədi. Çarizm Qafqazda öz qayda-qanunlarını bərqərar etmək, xristianlığı yaymaq, bölgədə İslamın oynadığı mühüm rolu mümkün qədər məhdudlaşdırmaq siyasəti yürütdü (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 6).

Çar Rusiyası Azərbaycanda dini duruma təsir göstərmək üçün müxtəlif üsullardan istifadə etdi, bu isə əhalinin Rusiyaya əvvəlki münasibətinin dəyişilməsinə gətirib çıxardı. Azərbaycanla bağlı siyasətdə əhalinin xristianlaşdırılması, müsəlmanlar arasında məzhəb fərqini şişirtməklə sünnilərlə-şiələri bir-birlərinə qarşı qoymaq xüsusi yer tuturdu. Həmin dövrdə məzhəb zəminində qarşıdurmalar zəifləsə də, mövcud nifrət tam səngiməmişdi.

Rusiyanın hakim dairələri Qafqazı, xüsusilə də Azərbaycanı xristianlaşdırmaq və ruslaşdırmaq üçün yerli müsəlman ruhanilərini nəzarətində saxlamağa çalışırdı. 1823-cü ildə Qafqazın şeyxülislamı təyin edilmiş Tiflis axundu Məhəmməd Əli Hüseynzadəni yerli əhali dini rəhbər kimi qəbul etmirdi. Bununla yanaşı, Qafqazda müsəlman ruhaniliyinin fəaliyyəti haqqında Rusiya İmperiyasının xüsusi qanunverici aktı yox idi. 1829-cu ildə Cənubi Qafqazda inzibati idarəetmə və məhkəmə islahatı layihəsi hazırlandı. Bu sənəd Cənubi Qafqazın, xüsusilə Azərbaycanın ruslaşdırılmasını və xristianlaşdırılmasını nəzərdə tuturdu. Bu planın həyata keçirilməsi üçün öncə bölgədə xristianlığın rolunu gücləndirmək məqsədilə kilsələrin sayı artırıldı, bir sıra hallarda məscidlər kilsələrə çevrildi. İrəvanın ələ keçirilməsini əbədiləşdirmək məqsədilə 1852-ci ildə osmanlıların inşa etdirdiyi Cümə məscidinin İ.F.Paskeviçin əmri ilə pravoslav kilsəsinə çevrilməsi bu siyasətə əyani nümunədir (Вердиева 1999, 49).

## Azərbaycanlıların ruslaşdırılması və xristianlaşdırılması siyasəti

Bu siyasəti öz fəaliyyət proqramında əsas müddəaya çevirən Sisyanov, Yermolov kimi baş komandanlar onu daha amansızcasına həyata keçirirdilər. Elə Sisyanovun Kür və Araz çayları arasındakı əraziləri xristianlarla məskunlaşdırmağı, Yermolovun isə Qafqazdakı bütün qeyri-rusları məhv etməyi qarşıya məqsəd qoymaları bu siyasətin mahiyyətini bir daha açıqlayır (Umudlu 2004, 75).

Azərbaycanlıların "ruslaşdırılması" və "xristianlaşdırılması" məqsədi ilə Çar Hökuməti bu dövrdə Rusiyanın və Ukraynanın mərkəzi quberniyalarından Şimali Azərbaycana xeyli malakan, duxobor və digər təriqətlərdən olan

ailələr köçürmüşdür. Təkcə 1833-1843-cü illər ərzində Rusiyadan Azərbaycana köçürülənlərin hesabına burada 20-yə qədər kənd yaranmışdı (Hüseynov 2012, 29).

Bəzən isə Quberniyada bütöv bir kəndin torpaqlarını gəlmə rus kəndlilərinə verirdilər. Təkcə Muğanda və Mildə 4 kəndin 2 mindən çox ailəsi öz ata-baba yurdlarından qovulmuşdu. 1909-cu ildə Quba qəzasındakı ən münbit torpaqların bir hissəsi əraziyə Kiyev quberniyasından köçürülmüş 2 min kəndliyə verilmişdi.

Sonrakı illərdə də əhalinin etirazına baxmayaraq Çar Hökuməti müstəmləkəçi köçürmə siyasətini davam etdirdi. 1911-ci ildə Muğana köçürülən min nəfər rus kəndli ailəsinə 5 min desyatin torpaq verilmişdi. 1912-ci ildə Rusiyadan müxtəlif vaxtlarda Muğana köçürülmüş 20 min əhalinin yaşaması üçün 49 kənd salınmışdı. Yerli əhalidən qorunmaq üçün, hətta Muğandakı rus kəndlilərinə dövlət rəsmi olaraq silah vermişdi (XX əsr Azərbaycan tarixi 2009, II/28-29).

Xristianlığın pravoslav və protestant qollarına mənsub əhalinin Şimali Azərbaycanda məskunlaşması məhz həmin dövrə təsadüf edir. Çar Rusiyası alman koloniyalarını, pravoslavları və pravoslavlığa zidd təriqət mənsublarını 1828-1930-cu illərdən başlayaraq, Mərkəzi Rusiyadan əyalətlərə, o cümlədən, Cənubi Qafqaza, əsasən də Şimali Azərbaycan ərazilərinə dayaq sayılacaq forpostların yaradılması məqsədi ilə yerləşdirmişdi. Onlar bu ərazilərdə məskunlaşmaqla yanaşı, kilsələr inşa edərək ibadətlə məşğul olur, bir sıra hallarda isə yerli əhalinin istifadəsində olan torpaqlar onlara verilirdi. Bu da Şimali Azərbaycan kəndlərində aztorpaqlı və tamamilə torpaqsız kəndlilərin sayının artmasına, müflisləşməyə səbəb olurdu. Məhz bu siyasət nəticəsində, XIX əsrin birinci yarısında Rusiyadan köçürülənlər Şimali Azərbaycanda bir sıra xristianmənşəli kəndlərin əsasını qoydular.

Çar Rusiyasının Şimali Azərbaycanda güclənmək siyasətində rus zadəganları nümayəndələrinin də bura köçürülmələri istəyi vardı. Bəzi yüksəkrütbəli Çar məmurları belə düşünürdülər ki, müstəmləkə ölkəsində çarizmin etibarlı arxası ancaq həmin ərazidə kök salacaq rus zadəganları ola bilərdilər. Ona görə də yerli bəylərə tiyul (Səfəvilər dövründə bəylərə verilən şərti torpaq sahibliyi) hüququ əsasında ayrılmış torpaqların onların əlindən alınıb rus zadəganlarına verilməsi nəzərdə tutulmuşdu. Çar Hökuməti bu təklifi bəyənib, əvvəl Qazax, Şəmsəddil və Borçalıda yaşayan bəylərin torpaqlarını və həmin torpaqları becərən kəndlilər üzərindəki hüququnu ləğv etmişdi. Çar bu qanunu sonra bütün Kaspi vilayəti bəylərinə də şamil etmək fikrində idi. Rus zadəganları arasında isə bu yerlərə köçüb-gəlmək həvəsində olanlar tapılmamışdı (Orucov 2012, 139).

Çar Rusiyası xristianlığa mənsub əhalini Şimali Azərbaycana köçürməklə burada onun yayılacağını və müsəlman din xadimlərinin mövqelərinin zəifləyəcəyini düşünürdü. Hakim dairələr dindar əhaliyə müstəmləkə siyasətinin həyata keçirilməsinə mane olan əsas qüvvə kimi baxır, onların müqavimətinin qarşısının alınmasına çalışırdı. Buna görə də Çar Hökuməti, ilk növbədə, ruhaniləri "zərərsizləşdirməyi" qarşısına məqsəd qoymuşdu. Çarizmin dinlə bağlı siyasəti də elə bu prinsipə söykənirdi. Nəticədə, Şimali Azərbaycanın işğalı ilə müsəlman ruhaniliyinin sosial və hüquqi durumu pisləşməyə başlanmış, əsrlər boyu malik olduqları bir sıra hüquq və imtiyazlardan məhrum edilmişdilər.

Bu köçürülmələrdən sonra Azərbaycan kəndlilərinin demoqrafik vəziyyətində, həyat tərzində, məişət sferasında müəyyən dəyişikliklər baş verdi ki, bu da yerli əhalinin mənəvi-psixoloji baxışlarında öz əksini tapmaya bilməzdi; məsələn: yerli əhali Azərbaycana köçürülən ruslara – "hakimiyyət dairələrinə yaxın adamlar kimi" yanaşmağa başladı. Gəlmələr isə yerli əhalini – "geridəqalmış tatarlar" adlandırmağa başladılar. Bəzən isə gəlmələrlə yerli əhali arasında milli-məişət zəminində müəyyən münaqişələr yaranırdı (Hüseynov 2012, 29).

Bu dövrdə mülki məhkəmələrlə yanaşı, şəriət məhkəmələri də fəaliyyət göstərirdi. Əyalətlərin ruhani rəhbərləri qazılar idi. Onlar şəriət məhkəmələrinə başçılıq edir, nikah, boşanma və digər işlərə baxırdılar. Mülki məhkəmələrə komendantlar rəhbərlik edir, din xadimləri onlardan tam asılı vəziyyətdə idilər; onlar bütün məsələləri komendantla razılaşdırırdılar. Bu dövrdə məscidlərin sayı azaldılmış, xüms (gəlirlərin beşdəbiri qədər verilən vergi) vergisi könüllü elan edilməklə, demək olar ki, ləğv edilmiş, bir sıra din xadimlərinin üzərinə vergi və mükəlləfiyyətlər qoyulmuşdu. Hökumətə qarşı hər hansı əməldə təqsirli bilinən din xadimlərinə ən ağır cəzalar verilirdi (Orucov 2012, 140-141).

Bununla yanaşı, rus hakim dairələri Azərbaycanda öz müstəmləkəçilik qaydalarını möhkəmləndirmək üçün yerli əhalinin dini işlərinə qarışaraq, ruhani rəhbərlərini istədikləri vaxt vəzifədən azad edir, onların yerinə özlərinə münasib adamları təyin edirdilər; məsələn: 1816-cı ildən Qafqazdakı rus qoşunlarının Ali Baş Komandanı təyin olunmuş A.P.Yermolov 1822-ci ildə Tiflis axundu Tanrıverdini vəzifəsindən azad edərək İrana sürgün etdirmişdi. Bu qərarı A.P.Yermolov onunla əsaslandırırdı ki, guya, Axund Tanrıverdi xaricdən - İslam ölkələrindən dəstək alıb, Qafqaz müsəlmanlarını Rusiyaya qarşı milli azadlıq mübarizəsinə qaldırmağa cəhd göstərir. A.P.Yermolovun geniş əhali kütləsinə ünvanlanan "Müraciətnamə"sində göstərilirdi ki, guya, Axund Tanrıverdi "Rusiyanın faydalı himayədarlığını qəbul etməyərək", "hökumət üçün zərərli olan xaricilərlə gizli əlaqələrin qurulmasını" dəstəkləmişdir.

Hüquqları xeyli məhdudlaşdırılan və özləri müxtəlif vasitələrlə sıxışdırılan müsəlman din xadimləri, ruhanilər xarici səfərlərdə də (əsasən, ziyarətlər zamanı) təqiblərə məruz qalırdılar. Şəkili Hacı Mir Niyaz əfəndinin Məkkə ziyarəti zamanı İslam dinini təbliğ etməkdə ittiham edən Veliyaminov Mədətova göstərişində yazırdı: «Məkkəyə yola düşən ...Mir Niyaz əfəndi Ərzurumda Səlim xan və İrəvan sərdarı ilə görüşüb. O İslam dininin şöhrətini yayır və rus qoşunlarına nifrət təbliğ edir. Əgər oralara gəlsə onu tutun».

İslama və müsəlmanlara nifrəti tükənməyən Yermolov 1822-ci ildə Həcc ziyarətini Qafqaz müsəlmanlarına qadağan etdi. Sonrakı illərdə isə Məkkəyə ziyarət üçün Tiflisə gedib baş komandandan icazə almaq lazım idi. Yermolovun bu təklifinə razılıq verən, eyni zamanda bu qərarın ağır nəticələrlə səbəb olacağından qorxan Çar I Aleksandr bu işə siyasi don geyindirməyi tapşırdı.

Öz hərbi qüvvələrinə arxayın olan və çar tərəfindən dəstəklənən Yermolov bu istiqamətdə daha «irəli» getməyi qərara aldı. Belə ki, 1823-cü ildə onun göstərişi ilə Dərbənddəki mahal məscidi Müqəddəs Georgi Pravoslav kilsəsinə çevrildi. Elə həmin ildə Yermolov Qubada ruhani başçılarını yığaraq mollaların həddindən artıq artmasına mane olmağı tapşırdı. Mollaların dua etməsi üçün baş komandan tərəfindən mətnlər hazırlandı (Umudlu 2004, 77).

Müstəmləkə zülmünə qarşı ilk üsyan 1826-cı ildə Gəncə şəhərində baş vermişdir. Hökumət dairələri onu amansızcasına yatırdı. Ardınca Azərbaycanın əksər bölgələrində, o cümlədən, Lənkəran, Şuşa, Quba və Nuxada da rus işğalına və İslam dininə qarşı həyata keçirilən zorakılığa etiraz olaraq üsyanlar baş verdi. Bu səbəbdən, çarizm müsəlman ruhanilərinin gücü ilə hesablaşmaq, cəmiyyətin əxlaqına və məişətinə ciddi təsir göstərə bilən, müstəqil sosial-siyasi qüvvə olan müsəlman ruhanilərə münasibətdə yeritdiyi siyasi xətdə dəyişikliklər etmək məcburiyyətində qaldı. Çarizm İslam dini və müsəlman ruhaniləri ilə bağlı siyasətini ehtiyatla həyata keçirməyə çalışırdı. Bununla da çarizm İslamın nüfuz dairəsini mümkün qədər məhdudlaşdırmaq, müsəlman ruhanilərinə məqsədyönlü şəkildə təzyiqlər göstərmək, xristianlığı müsəlmanların yaşadıqları ərazilərdə hər vasitə ilə yaymaq, müsəlman ruhanilərinin dini-siyasi fəallığını zəiflətmək, ruhanilərlə əməkdaslıq əlaqəsinə girərək, onların nüfuzundan imperiyanın mənafeyi naminə faydalanmaq istəyirdi (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 7).

## Zaqafqaziya Müsəlmanları İdarəsinin yaradılması

Azərbaycanlıların rusların ağalığına qarşı getdikcə artan narazılıqlarını aradan qaldırmaq, onları müstəmləkə qaydalarına tabe etdirmək üçün Rusiyanın hakim dairələri ən müxtəlif tədbirlərə əl atırdı. Onlar başa düşürdülər ki, hər bir xalqın milli-azadlıq mübarizəsində dini-mənəvi amillər həlledici rol

oynayır. Buna görə də öz müstəmləkəçilik planlarını genişləndirmək istəyən rus generalları xalqın dini-mənəvi dəyərlərinə təsir etmək üçün bütün vasitələrə əl atırdı. Belə ki, Çar Hökuməti Qafqaz müsəlmanlarına vahid bir mərkəzdən rəhbərlik etmək üçün 1823-cü ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsini təşkil etdi. Tiflis axundu Məhəmməd Əli Hüseynzadə Qafqazın şeyxülislamı təyin edildi. Bu, Qafqazın müsəlman əhalisi üçün ilk təyinat deyildi. Yəni Qafqazda şeyxülislamlıq təsisatı minillik tarixə malik idi. Çarizm, ilk növbədə, Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsini yaratmaqla müsəlman dini icmalarını bir mərkəzdən idarə etməyə çalışırdı. Çarizm şeyxülislamlıq təsisatını öz nəzarətində saxlamaq üçün dini mərkəzi Tiflisdə qərarlaşdıraraq, Axund Əli Hüseynzadəni idarənin sədri və Qafqazın şeyxülislamı təyin etdi. Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin təşkili və şeyxülislam vəzifəsinin təsis edilməsi Qafqaz üçün yeni hadisə idi. Belə ki, Azərbaycanın ayrı-ayrı bölgələrində uzun illər boyu şeyxülislamlar fəaliyyət göstərsələr də, həm dindar əhali, həm də dövlət tərəfindən qəbul edilən şeyxülislamların adları tarixə düşməmişdir. Məhz bu baxımdan, mütəşəkkil və mərkəzləşdirilmiş qurum olan Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi və şeyxülislamlıq təsisatının yaranma tarixi 1823-cü ildən hesablanmalıdır. Həmin tarixdən etibarən, Qafqazın bütün şeyxülislamları Azərbaycandan olmuşlar (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 7-8).

Hökumət Rus İmperiyasının müstəmləkə siyasətinin təbliği və İslamda məzhəb ayrı-seçkiliyinin qabardılması məqsədilə general Rozenin təklifinə əsasən, 1832-ci ildə Tiflisdə Qafqazın müftisi vəzifəsini təsis etdi. Kazan tatarı Tacəddin Mustafa Qafqaza ilk müfti təyin edildi və on hərbi kapitan rütbəsi verildi. Lakin o bölgənin müsəlman əhalisi arasında etibar qazana bilmədi və Şeyx Şamilin əks tədbirləri nəticəsində tamamilə nüfuzdan düşdü. Bu səbəbdən, 1842-ci ildə hökumət onu görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin oğlu, dərin dini bilik sahibi, Qazax müftisi Osman Əfəndi Vəlizadə ilə əvəz etdi (Əhədov 1991, 60).

Beləliklə, XIX əsrin 30-cu illərində Tiflisdə Qafqaz müsəlmanlarının iki idarəsi - şeyxülislamın başçılıq etdiyi şiə və müftinin rəhbərlik etdiyi sünni ruhani idarələri fəaliyyətə başladı. İdarələrdən hər birinin tərkibi bir sədr, üç üzv, bir katib, iki kargüzar, bir tərcüməçi, bir mirzə, bir arxiv işçisi olmaqla on nəfərdən ibarət idi. Hər bir idarəyə hüquqi cəhətdən dörd məclis - Tiflis, İrəvan, Yelizavetpol (Gəncə) və Bakı məclisləri tabe idi. Şiə idarəsinin 20, sünni idarəsinin 16 qazısı var idi (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 9).

1828-ci ildə rus qoşunları Təbrizi tutduqdan sonra, Rusiyanın Qafqazdakı canişini İ.R.Paskeviç Təbrizin müctəhidi, məşhur ilahiyyat alimi Ağa

Mirfəttah Təbatəbainin Zaqafqaziyanın şiə əhalisinin rus imperatorunun “üzünə ağ olduğuna” görə, onların “başına ağıl qoymaqdan ötrü” Tiflisə gəlməsinə nail olmuşdur. Ağa Mirfəttah Təbatəbai Tiflisə gəldiyinə görə o, Çar Hökuməti tərəfindən “brilyantla bəzədilmiş qızıl medal” və I dərəcəli “Müqəddəs Anna” ordeni ilə təltif edilmişdi. Bundan başqa, A.M.Təbatəbaiyə, guya, imperatora xidmət etdiyi üçün 2 000 onluq (çervon), Tiflisdə gözəl bağı olan xüsusi mülk və Şirvanda illik gəliri 5 360 rubla çatan 15 kənd verilmişdir.

Qeyd edək ki, A.M.Təbatəbainin Çar Hökuməti tərəfindən Tiflisə gətirilməsinin, bir tərəfdən, Zaqafqaziya müsəlmanlarının çarizmə qarşı narazılığının aradan qaldırılmasında müəyyən təsiri olsa da, digər tərəfdən, belə bir ilahiyyat aliminin Azərbaycanda, o cümlədən, bütöv Qafqazda İslam maarifçiliyinin genişlənməsi və yerli əhalinin dini səviyyəsinin yüksəldilməsində müsbət rolu olmuşdur (Hüseynov 2012, 31).

## “Müsəlman ruhaniliyinin təşkili haqqında” Əsasnamə hazırlanması

1829-cu ildə İ.F.Paskeviç P.Zavileyskinin rəhbərliyi ilə xüsusi komitə yaratdı və ona “Müsəlman ruhaniliyinin təşkili haqqında” Əsasnamə hazırlamağı tapşırdı. 1832-ci ildə din xadimlərinin müsəlmanlara təsiri nəzərə alınaraq, Cənubi Qafqazda yaşayan müsəlmanlar üçün baş müfti vəzifəsi təsis olundu və milliyyətcə tatar olan Tacəddin Mustafin müfti təyin edildi. Bu dəfə də Rusiya hakimiyyət orqanlarının müsəlmanları idarə etmək cəhdləri boşa çıxdı.

İslam dininə və müsəlmanlara sərt münasibət, onlara qarşı aparılan qərəzli siyasət Çar Rusiyasına baha başa gəldi. Müxtəlif vaxtlarda baş verən üsyanlar, bütün təsirlərə baxmayaraq, din xadimlərinin əhali arasında hörmətinin azalmadığını və onların aparıcı gücə malik olduğunu sübut etdi. Komendant idarə üsulu yerlərdə hakimiyyəti möhkəmləndirmək ümidini doğrultmadı, onların özbaşınalığı geniş xalq kütlələrinin və əhalinin imkanlı təbəqəsinin narazılığına səbəb oldu (Orucov 2012, 147).

Rusiya Çarının 29 noyabr 1832-ci ildə Senata göndərdiyi Fərmana əsasən, Cənubi Qafqaz Müsəlmanlarının Dini İşlər İdarəsi barədə xüsusi “Əsasnamə” hazırlanması işi hökumət tərəfindən nəzarətə götürülmüşdü. Hazırlanan layihələrin isə heç biri bəyənilməmiş və 1849-cu ildə Qafqaz canişini knyaz M.Vorontsovun tapşırığı ilə Xarici İşlər Nazirliyinin əməkdaşı N.Xanıkov Məhəmmədi ruhanilərin təşkili barədə “Əsasnamə” layihəsinin yeni variantını hazırlamışdır. Layihə bütövlükdə bəyənilsə də, Krım müharibəsi onun həyata keçirilməsini ləngitmişdi.

1864-cü ildə Cənubi Qafqaz müsəlman ruhanilərinin təşkili barədə “Əsasnamə” layihəsinin hazırlanması məqsədilə yeni komissiya yaradılmış, yerli şiə

və sünni məzhəblərinin nümayəndələri - şeyxülislam və müfti də komissiyanın tərkibinə qatılmışdılar.

N.Xanıkovun layihəsi əsas götürülmüşdü. Komissiyanın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdu:

- *Cəmiyyətin möhtəməl müxalifətçi təbəqəsi olan ruhanilər üzərində hökumət üçün nəzarət vasitəsi təmin edilsin;*
- *Ruhani təbəqəsi arasında "cəm olma ruhu"nun möhkəmlənməsinin qarşısı alınsın;*
- *Müsəlman ruhanilərinin fəaliyyət və nüfuz dairəsi məhdudlaşdırılsın;*
- *Ən nüfuzlu müsəlman ruhanilərinin maddi maraqlarını hakimiyyətə xidmətlə əlaqələndirmək yolu ilə onlar hökumətdən bilavasitə asılı vəziyyətə salınsınlar.*

Bir sıra yeni təlimatlar hazırlanmışdı. 1862-1872-ci illərdə qüvvədə olan təlimat müsəlman ruhanilərinin vəzifələrini, hüquq və imtiyazlarını, dünyəvi hakimiyyətlə qarşılıqlı münasibətlərini tənzimləyirdi. 1867-ci il təlimatında şeyxülislam və müfti üçün nəzərdə tutulmuş səlahiyyətlər onlara dini işləri şəxsən idarə etmək imkanı verirdisə də, sonrakı təlimatlarda bu iş onların sədrliyi altında yaradılmış idarələrə həvalə edilmişdi. Əgər bu vaxtadək hökumətdən, ancaq şeyxülislam və müfti maaş alırdılarsa, 1867-ci ildən sonra digər yüksəkrütbəli müsəlman ruhaniləri də hökumətdən maaş almağa başlamışdılar.

Cənubi Qafqaz şiə və sünni Məhəmmədi Ruhanilər İdarəsi haqqında "Əsasnamə" Dövlət Şurasının təqdimatı ilə Rusiya Çarı tərəfindən 5 aprel 1872-ci ildə təsdiq edilmişdi.

İdarənin təşkilində rus ortodoksal kilsəsinin quruluş prinsipi əsas götürülmüşdü. Cənubi Qafqazda 2 müsəlman inzibati orqanı - müftinin başçılığı ilə Sünni Ruhani İdarəsi (müftilik) və şeyxülislamın sədrliyi altında Şiə Ruhani İdarəsi (şeyxülislamlıq) yaradılmışdı. Tiflisdə yerləşən bu iki idarənin hər biri sədrdən, İdarə Heyətinin 3 üzvündən, 2 köməkçisi ilə birlikdə katibdən, mütərcim, mirzə və arxivariusdan ibarət idi. İdarələr Rusiya İmperiyası Daxili İşlər Nazirliyinin nəzarəti altında idi və şəxsən canişin qarşısında məsuliyyət daşıyırdı. Quberniya səviyyəli ruhanilər quberniya və uyezdlərdəki yerli hakimiyyətlərə tabe idilər.

1832-ci ildə rus generalı Q.V.Rozen Zaqafqaziyanın sünni məzhəbli müsəlmanlarını "sakitləşdirmək", "hakimiyyətə tabe etdirmək", "onların azğın mənəviyyatını yumşaltmaq" və imperatora sədaqətlə xidmət etdirmək üçün yüksək ruhani nümayəndələrinə müfti dərəcəsi təyin etdi. Bu məqsədlə rus generalı Q.V.Rozen milliyyətcə tatar olan və Çar Hökumətinə böyük xidmətlər göstərmiş Tacəddin Mustafin əfəndini Kazan şəhərindən Qafqaza

müfti vəzifəsinə gətirtdi. Kapitan rütbəsi daşıyan Mustafin əfəndi vaxtilə Şeyx Şamilin Çar Hökumətinə tabe olması üçün onunla danışıqlar aparmışdı (Hüseynov 2012, 32).

Bu dövrdə Çar Rusiyası Şimali Azərbaycanda, nəinki müsəlman ruhanilərin, həm də Alban katolikosluğunun da hüquqlarını məhdudlaşdırmışdı. Nəticədə, Çar Hökuməti 1836-cı ildə rəsmi olaraq, Alban katolikosluğunu ləğv edərək Erməni-Qriqorian Kilsəsinin tabeliyinə vermişdi.

Çar Rusiyası məmurları ruhanilərin nəinki hüquq və imtiyazlarını məhdudlaşdırmaqla kifayətlənmir, bir çox hallarda xalqın dini inanclarına qarşı təhqiramiz ifadələrə yol verir, ruhaniləri xalqın gözündən salmağa çalışırdılar.

Öz müstəmləkəçilik planlarını hər vasitə ilə möhkəmləndirməyə çalışan Çar Rusiyası xalqın dini-mənəvi dəyərlərinə, minillik əqidəsinə, milli adət-ənənələrinə ciddi təsir göstərməklə azərbaycanlıları ruslaşdırmaq planlarını həyata keçirə bilmirdi. Əksinə, hakimiyyətin yerlərdəki nümayəndələri xalqa qarşı nə qədər özbaşınalıq edirdilərsə, əhali arasında onlara qarşı narazılıq getdikcə artırdı. Belə ki, rus məmurlarının özbaşınalıqlarından cana doymuş xalq 1837-ci ildə üsyan etdi. Tarixə "Quba üsyanı" adı ilə daxil olmuş bu Milli-Azadlıq Hərəkatı, təxminən, 16 min kəndlini və şəhərlini əhatə etdi. Lakin, üsyan amansızcasına yatırıldı (Hüseynov 2012, 32).

Vəziyyətin daha da gərginləşə biləcəyini nəzərə alan Çar Hökuməti XIX əsrin 40-cı illərində dinlə bağlı siyasətinə yenidən baxdı, 1842-ci ildə Cənubi Qafqaza xüsusi komissiya göndərdi, ruhanilərin əvvəlki hüquq və imtiyazlarının qismən bərpasını, şəriət məhkəmələrinin fəaliyyət dairəsinin genişləndirilməsini, hakimiyyətə sədaqətlə qulluq edən din xadimlərinin mükafatlandırılmasını, vəzifədə olan bütün ruhanilərə xəzinədən məvacib ayrılmasını və s. nəzərdə tutan rəsmi sənədlər hazırlandı.

Bu hadisədən sonra Çar Hökuməti Azərbaycandakı müstəmləkəçilik siyasətində müəyyən dəyişikliklər etdi. Yüksək müsəlman təbəqələrinin xalq arasında geniş nüfuza malik olduğunu görən çarizm onların cəmiyyətdəki mövqeyini hüquqi cəhətdən yüksəltmək üçün xüsusi bir komitə yaratdı. 1843-cü ildə yaradılan bu komitə – "yüksək müsəlman təbəqələrinin (bəy, xan, məlik, qazı və s.) hüquqlarını araşdıran xüsusi komitə" adlandırıldı. Bu komitə yüksək təbəqələrin hüquqlarının əvvəlki illərə nisbətən yüksəlməsinə və onlara müəyyən imtiyazlar verilməsinə nail oldu. Bununla da çarizm xalqın Milli-Azadlıq Hərəkatında yüksək təbəqələrin təsirini azaltmaq yolunda müəyyən addımlar atdı (Hüseynov 2012, 32-33).

## "Zaqafqaziya müsəlman ruhaniliyinin idarə olunması haqqında" Əsasnamənin qəbul edilməsi

Din sahəsində yeni mərhələyə başlanılmasına baxmayaraq, Çar Hökuməti uzun müddət müsəlman din xadimlərinin sosial-iqtisadi və siyasi-hüquqi statusu məsələsini həll edə bilmədi. Nəhayət, yeni siyasətin həyata keçirilməsi məqsədilə 1872-ci il aprel ayının 5-də II Aleksandrın Fərmanı ilə 1917-ci ilin fevralınadək qüvvədə olan "Zaqafqaziya müsəlman ruhaniliyinin idarə olunması haqqında" Əsasnamə qəbul edildi. Bu sənədə əsasən, müsəlman ruhaniliyi hakimiyyət orqanlarının tam nəzarətinə keçdi, vəzifələrə təyinat barədə qərarları hakimiyyət orqanları qəbul etdi. Məscidlərin və din xadimlərinin fəaliyyətinə nəzarəti dövlət həyata keçirdi, şiə və sünni ruhani idarələri yaradıldı, Qafqaz şeyxülislamı və Qafqaz müftisi vəzifələri təsis edildi. Onların maaşı dövlət tərəfindən ödənildi (Səmədov 2009, 28).

Ruhani idarələri yerlərdə öz fəaliyyətini quberniya məclisləri, qazılar və məscid ruhaniləri vasitəsilə həyata keçirməyə başladı və hər iki idarənin mərkəzi Tiflis müəyyən edildi. İdarənin təşkilində Rus Pravoslav kilsəsinin quruluş prinsipi əsas götürüldü. İdarələrin hər biri sədrdən, idarə heyətinin 3 üzvündən, 2 köməkçisi ilə birlikdə katibdən, mütərcim, mirzə və arxivariusdan ibarət idi. Hər iki idarənin tabeliyində Tiflis, İrəvan, Yelizavetpol (Gəncə), Bakı quberniyalarının hərəsində bir məclis olmaqla 4 məclis, sünni idarəsində 16, şiə idarəsində 20 qazı var idi. İdarələr Çar Hökumətinin Daxili İşlər Nazirliyinin nəzarətində idi, quberniya səviyyəli din xadimləri yerli hakimiyyətlərə tabe idilər.

Sözügedən sənədə əsasən, Qafqaz canişininin göstərişi ilə müsəlmanların yaşadıqları quberniyalarda qazıların sədrliyi altında Məclis yaradıldı. Məclis üzvlərini qubernator "axund" və "əfəndi" adı olan şəxslərin arasından seçib təyin edirdi və Məclisin qərarlarını yerli polis həyata keçirirdi. Qazıların vəzifəsinə məscidə təyin edilmiş din xadimlərinə nəzarət daxil idi. Qazı ibadətlərin edilməsinə buna haqqı olmayan şəxslərin buraxılmamasına nəzarət etməli, mübahisəli məsələləri araşdırmalı, Rusiyanın maraqları üçün zərərli dini təlimlərin yayılmasının qarşısını almalı idi. Eyni zamanda, həmin Əsasnaməyə görə, vəzifəyə təyin edilən din xadimləri hər hansı təriqətə, yaxud təlimə mənsub olmamaları barədə vəsiqəyə malik olmalı idilər (Yunusov 2004, 96-97).

Din xadimlərinin xaricə səfərləri yalnız Rusiya hakimiyyət orqanlarının icazəsi ilə mümkün idi, dini təhsil almaq məqsədilə səfərlər yalnız rus konsulluqlarının və ya onların agentlərinin olduğu ölkələrə icazə verilirdi. Məscidlərin və mollaların sayına hakimiyyət orqanları nəzarət edir, dini ibadət yerlərinin və din xadimlərinin saxlanılması xərcləri müsəlman icmalarına

həvalə olunmuşdu. Din xadimləri üçün yaş həddi müəyyən edilmişdi; “molla” vəzifəsinə yaşı 22-yə, “axund” və “əfəndi” vəzifələrinə isə yaşı 30-a çatmış şəxslər təyin edilirdilər. Müəyyən olunmuş say həddinə görə, 150-200 evə bir molla düşürdü. Din xadimləri əvvəl Qafqaz canişininə, sonra Daxili İşlər nazirinə, Qafqazda Mülki Hissənin Baş rəisinə və qubernatora tabe idilər. Yalnız onların icazəsi və razılığı ilə din xadimlərinə adlar verilir və vəzifəyə təyin edilirdilər.

Din xadimi vəzifəsini tutmaq istəyən hər kəs yerlərdəki məmurlara hökumətin qadağan etdiyi heç bir icmaya və ya təriqətə mənsub olmamaq barədə iltizam verməli və hökumət bunun müqabilində qadağan olunmuş zərərli cəmiyyətlə bağlılığı olmamaq barədə şəhadətnamə almalı idi (Orucov 2012, 151).

İtaətkar ruhaniləri qiymətləndirmək və onların xidmətlərindən istifadə etmək çarizmin çoxdan sınaqdan çıxardığı üsullardan biri idi. Çarizmə tərəfdar çıxan ruhanilərə təqaüd, hətta hərbi rütbə və medallar verilir, “ağ padşah”a yaxşı münasibəti olmayan ruhanilər isə təqib olunurdular; məsələn: 1822-ci ildə general Yermolovun göstərişi ilə “ruspərəst” olmayan Tiflis axundu Qacarlar İranına sürgün edilmişdi. Axund Tanrıverdinin yeganə günahı ondan ibarət idi ki, axtarış zamanı evindən “axund” titulunun alınması barədə iranlı müctəhid tərəfindən imzalanmış vəsiqə tapılmışdı.

1828-ci ildə rus qoşunları Təbriz şəhərini işğal edərkən, Çar generalı Paskeviç müsəlman ruhanilərini və dindarları rus taxt-tacına hörmət etməyə çağırmaq məqsədilə müctəhid Ağa Mir Fəttaha Cənubi Qafqaz şiələrini sakitləşdirmək, “məlun Qacarları pisləyib”, Rusiya İmperiyasını tərifləmək üçün Tiflisə köçməyi təklif etmişdi. Bu din xadiminin köməyi ilə müsəlmanlardan ibarət dörd süvari alayı yaradılmış və Türkiyəyə qarşı müharibədə onlardan istifadə edilmişdi.

1872-ci ildə təsdiqlənmiş ruhani idarələri haqqında əsasnamələrdə müsəlmanların dini işləri üzərində daimi nəzarətin qoyulması barədə müddəalar da öz əksini tapmışdı. Ruhani idarələrinə nəzarəti müxtəlif vaxtlarda fərqli vəzifələr daşıyan bir çox Çar məmurları həyata keçirirdi. Din xadimlərinin mükafatlandırılması zamanı Ruhani İdarəsinin işi ilə bağlı məsələlərdə məhz həmin məmurların rəyləri əsas götürülürdü. Osmanlı Türkiyəsi ilə əlaqəli olan din xadimləri təqib edilirdilərsə, həmin dövlətə qarşı fəaliyyət göstərənlər, əksinə, Çar Hökuməti tərəfindən mükafatlandırılmışdılar; məsələn: 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı Quba qəzası əhalisinə təsir göstərərək, yerli hökumət orqanlarına kömək göstərmiş 6 nəfər din xadimi qızıl və gümüş medallarla təltif edilmişdi.

Dini rəhbərlər bütün vasitələrlə özlərinin İmperiyaya sədaqətli olduqlarını sübut etməyə çalışırdılar. Müfti Hüseyn Əfəndi Qayıbov və Şeyxülislam

Əbdüssəlam Axundzadə Cənubi Qafqaz ruhaniliyi üçün yazdıqları tövsiyənamələrlə Rusiya İmperiyasının maraqlarını təmin etməyə çalışmışlar. Qayıbov "Ümumi müslimin-müvəhhədin Zaqafqazə tövsiyənamə" adlı 9 hissədən ibarət hazırladığı sənəd əsasında 1896-1897-ci illərdə Cənubi Qafqazın sünni məzhəbli müsəlmanları arasında vəəzlər vermiş və İslam dini ruhaniliyi, müsəlmanların siyasi vəziyyəti və s. haqqında mülki işlər üzrə Qafqaz Baş İdarəsinə böyükhəcmli hesabat təqdim etmişdi. Müfti öz "tövsiyənamə"sində rəsmi müsəlman ruhaniliyinin vəzifələrindən danışır, onları şeyxlərə, dərvişlərə, zahidlərə və müridlərə qarşı mübarizəyə çağırır və izah edirdi ki, adları çəkilənlərin hərəkəti, həyat tərzi şəriətə və dövlətə ziddir. "Tövsiyənamə"də başqa ölkələrdən gələn müsəlman ruhaniləri, dərvişlər, seyidlər, yalançı adamlar kimi qələmə verilir və onlara sədəqə, zəkat, fitrə vermək möminlərə qadağan edilirdi. Zaqafqaziya (Cənubi Qafqaz) şeyxülislamı Əbdüssəlam Axundzadənin şiə məzhəbli müsəlmanlara və ruhanilərə "Tövsiyənaməsi" müftinin "Tövsiyənaməsi" ilə eyni məzmunlu olduğundan, hər iki sənədin eyni mərkəzdə hazırlandığı ehtimal olunur.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan müsəlmanlarının Avropa mədəniyyəti ilə yaxından tanış olmaq imkanları genişlənmiş, Qərb dəyərlərinə rəğbət güclənmiş, maarifçilik geniş vüsət almış və milli ruhda böyüyən gənclik formalaşmağa başlamışdı. Bu dövrdə Çar Hökumətini ən çox narahat edən müsəlmanlar arasında milli-azadlıq mübarizəsi fikrinin dirçəlməsi idi. Hökumət bu sahədə İslam dininin böyük rol oynadığını dərk edir, müsəlman cəmiyyətinin yeni keyfiyyət dəyişikliyi mərhələsinə keçməsinin qarşısını almağa, ən pis halda bu prosesi ləngitməyə çalışırdı.

Həmin dövrdə İmperiyanın din siyasətinin əsas istiqamətlərini Daxili İşlər Nazirliyinin Ruhani İşlər üzrə Departamenti müəyyənləşdirirdi. Əslində, dini fəaliyyət sahəsinin Daxili İşlər Nazirliyinə tapşırılması çarizmin dinə olan münasibətinin nəticəsi idi. Bu fakt təsdiqləyir ki, Çar Hökuməti din xadimlərindən, xüsusilə müsəlman ruhanilərdən ehtiyatlanır, nəzarətdə saxlamağa çalışır və onların qarşısını kəsən qüvvə kimi güc strukturunu görürdü (Orucov 2012, 148).

XIX əsrin sonlarında müsəlman ruhanilərinin çarizmin hakim dairələri tərəfindən əsassız təqib və təzyiqlərə, həbs və və təhdidlərə məruz qalmalarına, ciddi nəzarət altında fəaliyyət göstərməyə məcbur edilmələrinə baxmayaraq, şeyxülislamlar və müftilər öz müstəqilliklərini əldən vermək istəmirdilər. Şəhər və kəndlərin müsəlman əhalisinin dinlə bağlı problemləri, əvvəllər olduğu kimi, şəriət hökmləri və qanunlar əsasında həll edilirdi. Çar Hökuməti dairələrinin qazıların çıxardıqları hökmlərə müdaxilə etmək hüququ yox idi. Çar üsul-idarəsi tərəfindən məscidlərə məxsus vəqflərin müsadirə edilməsi ilə

bağlı cəhdlərə baxmayaraq, onların toxunulmazlığını qoruyub saxlamaq mümkün oldu.

Digər tərəfdən, Çar Hökuməti hakim dairələrin istəyini yerinə yetirməyən, hakimiyyətə qarşı genişlənən narazılığa qoşulan bəzi nüfuzlu dini rəhbərləri cəzalandırmağa başladı; məsələn: müsəlmanlar arasında imperiya xofu yaratmaq üçün Şuşa qazısı Mirzə Əbdülqasım həbs edilib Metex qalasına salındı. Nuxa qazısı Abdal Lətif Əfəndi Çar məmurları tərəfindən izlənildiyini hiss edib, 1844-cü ildə Həcc ziyarəti məqsədilə Məkkəyə gedərək Azərbaycanı tərk etdi.

Ümumiyyətlə, Şimali Azərbaycan işğal olunduqdan sonra, əhali arasında böyük nüfuza malik Azərbaycan xanlarından – Qarabağ xanı Mehdiqulu xan, Şirvan hakimi Mustafa xan, Bakı hakimi Hüseynqulu xan, Talış xanı Mir Həsən xan rus müstəmləkəçilərinin özbaşınalığına dözə bilməyib İrana köçməyə məcbur olmuşdular (Hüseynov 2012, 33).

Şeyxülislamlıq və müftilik təsisatları İslamın təbliği, dini elmlərin və dini təhsilin inkişaf etdirilməsi ilə bağlı iş aparırdı. Şərq tarixi və ədəbiyyatının, İslam elmlərinin gözəl bilicisi və 20-yə qədər əsərin müəllifi olan Şeyxülislam Əbdüssəlam Axundzadə təhsildə mütərəqqi meyillərin inkişafına istiqamət verir, Qori Seminariyasına istedadlı gənclərin cəlb olunmasınaa çalışır, onlara hərtərəfli yardım göstərirdi.

Onun dilçiliyə dair, peyğəmbərliyin tarixinə həsr edilmiş, İslam ehkamlarının şərhi ilə bağlı əsərləri maraqla oxunurdu. Şeyxülislam Məhəmməd Həsən Mövlazadə Şəkəvinin əsərləri, Müfti Hüseyn Qayıbzadənin risalələri, digər ilahiyyatçı və ruhanilərin əsərləri bu gün də İslam tarixinə dair mühüm qaynaq kimi istifadə olunur.

XX əsrin əvvəllərində şeyxülislamlar bölgədə getdikcə güclənməkdə olan dini missionerliyə, qeyri-ənənəvi əqidələrin yayılmasına qarşı mübarizə aparırdılar. Onlar təkallahlılıq mövqeyindən çıxış edərək, bir sıra təriqətçilərin təlimlərinin dağıdıcı mahiyyətini ifşa edirdilər. Təhsil, ailə və məişət məsələləri, bütövlükdə, Qafqazın müsəlman ruhaniləri tərəfındən tənzimlənirdi. Bu məsələlər müxtəlif toplantılarda müzakirə edilir, birgə rəy çıxarılırdı. 1905-ci ilin axırlarında müsəlmanların Tiflisdə keçirilən konfransında ailə-kəbin münasibətləri ilə bağlı bir sıra aktual məsələlərə dair mühüm qərarlar qəbul edildi (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 10).

## “Rusiyada Müsəlmanlıq” təşkilatının yaradılması

Sonrakı dövrlərdə bir sıra regional hadisələr, o cümlədən, Rusiya və Osmanlı imperiyalarındakı çaxnaşmalar və bu imperiyaların çökməsi, müsəlmanların müstəmləkə əleyhinə çıxışları fonunda zühur edən İslam birliyi, onun əxlaqi-etik prinsiplərinə əsaslanan ideya-siyasi cərəyan olan ittihadçılıq

(ərəb dilində birlik, həmrəylik deməkdir) meydana gəldi. Bu ideya öncə Şimali Azərbaycanda nəzəri bir ideologiya kimi ziyalılar arasında yayılmışdı. Sonradan həmin ideyalara əsaslanan siyasi qurum – "Rusiyada Müsəlmanlıq" təşkilatı yarandı. Qeyd etmək lazımdır ki, hələ 1905-ci il Rusiyada başlamış burjua inqilabından sonra, imperiya ərazisində yaradılan ilk dini-siyasi təşkilatlardan biri "İttifaqi-müslimin" (rəhbəri Ə.M.Topçubaşov) idi. Onun rəhbərliyi altında 1905-1906-cı illərdə Rusiyanın Peterburq və Nijni Novqorod şəhərlərində təşkilatın üç qurultayı keçirilmişdi. Bu təşkilatın əsas məqsədlərindən biri Rusiya ərazisində yaşayan müsəlmanların hüquqlarının təmin edilməsinə nail olmaq idi. 1917-ci ilin yayında elan edilmiş Təşkilat Komitəsi heç də yalnız din xadimlərindən ibarət deyildi. Komitənin tərkibinə Petroqrad Politexnik İnstitutunu bitirmiş Mir Yaqub Mir Mehdiyev və Təşkilat Komitəsinə "İrşad" qəzetinin naşiri Bəşir bəy Aşurbəyov, iqtisad elmləri namizədi Mahmud Quliyev, həkim Kərimağa Sultanov, Hacı Zeynalabdin Tağıyevin nəvəsi Ağa Zeynal Tağıyev, din xadimlərindən Axund Molla Ələkbər Abbasquluzadə, Axund Molla Ələkbər daxil idilər.

Çar Rusiyası yarana biləcək təhlükəni ciddi təhlil edərək, bu kimi halların qarşısını almaq məqsədilə müxtəlif qabaqlayıcı tədbirlər həyata keçirirdi. Bir tərəfdən, tabeliyində olan müsəlman xalqları arasında pravoslavlığı yayır, digər tərəfdən, müsəlman ölkələrindəki missionerlərin rəsmi nümayəndəliklərinin köməyi ilə İslam aləmini öyrənir, İngiltərə və Fransa kimi müstəmləkəçi ölkələrin müsəlman vilayətlərini idarə etmək metodlarına yiyələnir, İslam ideologiyasına qarşı mübarizə pərdəsi altında xalqların milli-mədəni dirçəlişinə qarşı mübarizə aparmaq üçün daha ətraflı, "düşünülmüş" planlar hazırlayırdı.

İttihadi-İslam ideya-siyasi cərəyanı Rusiya müsəlmanları arasında da geniş yayılmışdı. 1897-ci ildə birinci Ümum-Rusiya siyahıyaalınmasının yekunlarına görə, imperiya daxilində pravoslavlardan (87,1 milyon, yaxud 76 %) sonra ən çoxsaylı konfessiya müsəlmanlar (13,9 milyon, yaxud 11,9 *%)* idi. Şimali Azərbaycanda Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Axund Yusif Talıbzadə, Mirzə Əbdürrəhim Talıbov və başqaları İttihadi-İslam ideyasının üstünlüklərindən geniş bəhs edirdilər. Ə.Ağayev və Ə.Hüseynzadə ümum-İslam reallığı ilə yanaşı, bilavasitə Şimali Azərbaycan gerçəkliyini özündə əks etdirən baxışları ilə İttihadi-İslamı yeni orijinal fikirlərlə zənginləşdirmişdilər. Şimali Azərbaycanda İttihadi-İslam ideologiyasına əsaslanan siyasi partiya və təşkilatlar məhz bundan sonra təşəkkül tapmışdı. Ona görə də Rusiya İmperiyasında İslam birliyi ideyasına, onun hər cür təzahürünə qarşı panislamizm damğası vurulur, əleyhinə amansız mübarizə aparılırdı. Pravoslav əhaliyə daha geniş hüquqlar verilməklə bərabər, müsəlmanlar arasında xristianlığın zorla yayılması, müsəlmanların hüquqlarının tapdanması kimi vasitələrdən geniş istifadə edilirdi.

Həmin dövrdə böyük dini təyinatlı məkanların əksəriyyəti xalqın məşvərət yeri, din xadimləri isə milli oyanışa dəstək verən zümrəni təmsil edirdilər. Təzəpir məscidi və “İsmailiyyə” binası bu qəbildən olan mərkəzlərdən hesab olunurdu.

Düşmənlər Azərbaycan xalqının birliyinin təmin olunmasında Təzəpir məscidinin oynadığı rolu yaxşı bilirdilər. Ona görə mart ayının 31-də müsəlman əhalisinə qarşı soyqırımına başlayan daşnak-bolşevik birləşmələri "İsmailiyyə” binasını, “Kaspi” qəzetinin redaksiyasını və mətbəəsini, orada yenicə çap olunmuş Qurani-Kərimin 5 min nüsxəsini yandırıb tamamilə məhv etdilər.

1917-ci ilin aprelində Təzəpirin Ağa Əlizadənin təşəbbüsü ilə “İsmailiyyə” binasında Qafqazın Müsəlman Ruhanilərinin Birinci Qurultayı keçirildi. Üç gün davam edən qurultayda Qafqazın müsəlmanlar yaşayan əksər bölgələrinin nümayəndələrinin iştirakı ilə mühüm məsələlər müzakirə edildi. Təzəpir məscidində şeyxülislamın və müftinin iştirakı ilə camaat namazı qılındı (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 10).

Fevral inqilabından sonra, Bakı siyasi və dini mərkəz rolunu oynamağa başladı. Qafqaz Müsəlmanlarının Birinci Qurultayı 1917-ci ilin aprelində Bakıda “İsmailiyyə” binasında öz işinə başladı. Qurultayın işində Azərbaycanın bütün bölgələrindən, Dağıstan, Basarkeçər, Borçalıdan gələn nümayəndələr iştirak edirdilər. Qurultay iştirakçıları iki məzhəb arasında mövcud ixtilaflara etiraz əlaməti olaraq, günorta namazı vaxtı nümayişkaranə şəkildə “İsmailiyyə”dən Təzəpir məscidinə yollandılar. Din xadimləri və hər iki məzhəbdən olan yüzlərlə dindar dəstəmaz alaraq, məsciddə namaz qıldı. Sünni-şiə ixtilafına son qoymaq üçün şeyxülislamla-müfti qucaqlaşaraq bir-birini öpüb, and içdilər ki, vaxtilə çarizm tərəfindən qızışdırılan bu ədavəti aradan qaldırmağa çalışacaqlar. Qurultayda sünni və şiə məzhəblərinə parçalanmaya son qoymaq haqqında qərar qəbul olundu. Bakıda həmin dövrdə nəşr olunan qəzetlərdə Təzəpirin axundu Ağa Əlizadənin qurultayın təşkili ilə bağlı fəaliyyətinə xüsusi yer ayrılmışdır.

1914-cü ildə Çar Rusiyasının da qoşulduğu Birinci Dünya müharibəsi başlandı. İmperiyanın hər yerində çarizmin bu müharibədə qalib gəlməsi üçün kilsə, sinaqoqlarda dualar edilirdi. Bakı xəfiyyə polisinin xəbərlərindən məlum olur ki, Çar Rusiyası Osmanlı dövləti ilə müharibə apardığı illərdə Təzəpirdə Osmanlı dövləti əleyhinə təbliğat aparılmırdı. Əksinə, Ağa Əlizadə Nargin və Bulla adalarında ağır şəraitdə saxlanılan Osmanlı əsgər və zabitlərinə yardım etmək üçün Cümə namazında Bakı əhalisinə müraciət etmişdi.

Axund Ağa Əlizadəni narahat edən İslam dinini zəiflətmək üçün Çar üsul-idarəsi tərəfindən məzhəb fərqinin ədavət səviyyəsinə qaldırılması və sünni-şiə məzhəbləri arasında düşmən münasibət yaratmağa cəhdlər idi. Bu məzhəb

fərqi çox zaman Bakı ilə Tiflis arasında fikir ayrılığına gətirib çıxarırdı. Bunun qarşısını almaq üçün Təzəpirin axundu Ağa Əlizadə Bakıda Qafqaz Müsəlmanlarının Qurultayının keçirilməsi təklifini irəli sürdü. Qurultayda Qafqazın bütün bölgələrindən din xadimləri iştirak etdilər. Çıxışçılar Çar Rusiyasının uzun illər boyu məzhəb fərqi ilə bağlı yürütdüyü siyasəti tənqid edir, bu ədavətə son qoymağı tələb edirdilər. Qurultayın sonuncu günü bütün din xadimləri Təzəpir məscidinə gələrək, Cümə namazı qıldılar. Şeyxülislam və müfti minbərin qarşısında qucaqlaşaraq, İslamın birliyi uğrunda bir yerdə olacaqlarına and içdilər (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 6-12).

## Mart soyqırımı ərəfəsində cərəyan edən hadisələr

1915-ci ilin yanvarında rus ordusu Sarıqamış yaxınlığında 90 min Osmanlı əsgər və zabitini əsir götürdü. Osmanlı əsirlərinin bir hissəsi Bakı yaxınlığında dözülməz şəraitdə saxlanılırdı. 1917-ci ilin mayında N.Nərimanov Təzəpir məscidində Axund Ağa Əlizadə ilə görüşərək, Qafqaz cəbhəsində ruslara əsir düşən və Nargin adasında dözülməz şəraitdə saxlanılan türk əsgər və zabitlərinə kömək göstərilməsini xahiş etdi. Axund Ağa Əlizadə Cümə namazında əhaliyə din qardaşlarının ağır vəziyyəti haqqında məlumat verdi. Yüzlərlə dindar Təzəpir məscidinə gələrək, türk əsgərlərinə ərzaq və pulla yardım etməyə başladılar.

1918-ci ilin əvvəllərində "İsmailiyyə" binasında yerləşən "Müsəlman Xeyriyyə Cəmiyyəti" azərbaycanlı əhalidən Milli Ordu təşkil etmək üçün Təzəpir məscidinin axundu Ağa Əlizadəyə müraciət etdi. 1918-ci ilin Mart soyqırımına qədər Lənkəran, Bakı və Gəncədə hazırlanan Milli Ordunun əsgərlərinə ilk xeyir-duanı Təzəpir məscidinin axundu Ağa Əlizadə verdi. Onlar Quranın altından keçirəndən sonra hərbi hissələrə yola salındılar. Axund Ağa Əlizadə bu mərasimi çox zaman cümə gününə salırdı. Əhali bu mərasimi böyük ruh yüksəkliyi ilə qarşılayırdı. Təzəpir məscidində həyata keçirilən bu mərasimə etiraz olaraq, Bakı Soveti qüvvələrinin rəhbərliyi Axund Ağa Əlizadəni milli hissləri qızışdırmaqda ittiham edirdi.

Türk-müsəlman əhalisinə qarşı soyqırımına əvvəldən hazırlıq görən erməni-daşnak qüvvələri şəhərdə şayiə yaydılar ki, guya, Təzəpirin axundu Ağa Əlizadənin fətvası ilə müsəlmanlar rus millətindən olanları qırır, evlərini yandırırlar. Ermənilər rus matrosların Təzəpir məscidini top atəşinə tutmağa təhrik etdilər. Matroslardan biri gəmidəki uzaqvuran topla Təzəpiri atəşə tutmağa başladı. Birinci top mərmisi Təzəpirin həyətində partladı. Məscidin həyətində çaxnaşma başlayanda Təzəpirin axundu Ağa Əlizadə adamları sakitləşdirib, məscidi top atəşindən qorumaq üçün rus matrosları ilə danışıqla-

ra başlamağı qərara aldı. İkinci top mərmisi məscidin lap qabağına düşdü, ətrafa səpələnən qəlpələrdən məscidin pəncərə şüşələri çilik-çilik olub yerə töküldü. Üçüncü mərmi isə məscidin yan divarına dəyərək onu möhkəm zədələdi. Məscidin həyəti xarabalığı xatırladırdı. Matroslar şəhərdə ruslara qarşı heç bir qırğının törədilmədiyini yəqin edəndən sonra top atəşini dayandırdılar.

1918-ci ildə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımlarının təhqiqi ilə əlaqədar yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində qeyd olunur ki, Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Təzəpir məscidinə pənah aparmış əliyalın azərbaycanlı əhaliyə qarşı hər cür zorakılıq törətməyi, hətta lazım gələrsə, Axund Ağa Əlizadəni fiziki cəhətdən məhv etməyi, habelə məscidi belə yandırmağı bildirmişdi. Xoşbəxtlikdən, daşnak-bolşevik birləşmələri bu məkrli niyyətlərini həyata keçirə bilmədilər.

1918-ci il aprelin 25-də Bakıda Xalq Komissarları Soveti adlı qurum təşkil edildi. Azərbaycan xalqına düşmən olan bu qurum Bakının dini qurumlarına, o cümlədən, Təzəpir və Göy məscidlərinə nəzarət edilməsi haqqında Dekret imzaladı. Məscidlərin axundları və dindar əhali isə bu qadağaya baxmayaraq, məsciddə azanın verilməsinə və dini mərasimlərin yerinə yetirilməsinə davam edirdi.

1918-ci ilin martında Bakı şəhərində daşnak-bolşevik birləşmələri dinc əhaliyə qarşı qırğına başlayanda, Təzəpiri də dənizdən top atəşinə tutdular. Bakının əliyalın, dinc müsəlman əhalisi Təzəpirə pənah gətirmişdi. Axund Ağa Əlizadə başda olmaqla, din xadimləri böyük çətinlik hesabına məscidi top atəşindən qoruya bıldilər.

1918-ci ilin martında Bakıda cəsədlərin yuyulub dəfn olunmasında Təzəpir məscidinə ən böyük köməyi Əjdərbəy məscidi göstərmişdi. 1919-cu ilin sentyabrında Şeyxülislam Ağa Əlizadə Çəmbərəkənd qəbiristanlığındakı mitinqdə bunu xüsusi xatırlamışdı (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 23-27).

Şəhər rəhbərliyi Təzəpir məscidinin axundu Ağa Əlizadədən Azərbaycan torpaqlarını bolşevik-daşnak qüvvələrindən azad etməyə gələn türk əsgərlərinin hərəkətlərini lənətləyən fətva verməyi tələb edirdi. Məqsəd məzhəb fərqini şişirdərək, Osmanlı əsgərlərinin Bakıya daxil olmasını bağışlanmaz günah kimi qələmə vermək istəyirdi. Bütün hədə-qorxulara baxmayaraq, Axund Ağa Əlizadə onların bu tələbini rədd etdi (Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı 2011, 26).

1918-ci ilin martın sonlarında daşnak-bolşevik birləşmələrinin türk-müsəlman əhalisinə qarşı soyqırımına qarşı mübarizəyə çağırış Bakının ruhanilərindən gəldi. Soyqırımına məruz qalmış onminlərlə müsəlmanın dəfn mərasimlərinin təşkilinə, müsəlmanların müəyyən mənada təşkilatlanmasına

və müxtəlif qabaqlayıcı tədbirlərin görülməsinə Təzəpir məscidi rəhbərlik etdi. Azərbaycan xalqına qarşı həyata keçirilən bu müsibətlərdə milli ruhlu ziyalıların əksəriyyəti Təzəpir məscidinə gələrək, əhalini səbirli və dözümlü olmağa çağırırdı.

Bütün bunlar XIX əsr boyu imperiyanın din siyasətində aparıcı istiqamətlərin xristianlaşdırma, ruslaşdırma və din xadimləri üzərində daimi nəzarətin həyata keçirilməsi olduğunu göstərir. Bu istiqamətlərdə siyasət XIX əsrin sonu – XX əsrin əvvəllərində də davam etdirilmişdir.

## Nəticə

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlirik ki, bu dövrdə Çar Rusiyasının Azərbaycanda həyata keçirdiyi din siyasəti kifayət qədər sərt olmuş, bir sıra qadağa və məhdudiyyətləri özündə ehtiva etmişdir. Bu məkrli siyasətdə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, əhalinin xristianlaşdırılması və məzhəblər arasında qarşıdurmanın yaradılması əsas yerlərdən birini tutmuşdur. Həmçinin, bu planı həyata keçirmək üçün təlimatlar və qanunvericilik aktları hazırlanmış, yeni dini qurumlar təsis edilmişdir. Çar Rusiyasının həyata keçirdiyi amansız siyasətə qarşı mübarizə və müqavimətdə, baş verən qiyamlarda din xadimləri aktiv iştirak etmiş, daima əhalinin yanında olmuşlar.

Bütün çətinliklərə, qadağa və məhdudiyyətlərə baxmayaraq, Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə möhkəm sarılaraq, həmin siyasətə qarşı mübarizə aparmış, öz inancından dönməmişdir.

## ƏDƏBİYYAT

Əliyev R.Y. (1998). İslam və Azərbaycan mədəniyyəti. Bakı: Əbilov, Zeynalov və oğulları.

Гусейнов Р.А., Вердиева Х.Ю. (2000). История Азербайджана. Баку: Озан.

Seyidzadə D.B. (1998). Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: Ulduz.

İsgəndərov A.C., Mövlayi A. (2016). Şeyxülislamlığın tarixi. Bakı: Elm və təhsil.

Kərimova E., Axundov A., Nəhmədov A., Nəsirova T., Arslan S. (2018). Azərbaycan Xalq Cümhuriyyəti: Dövlət-din münasibətləri. Bakı: Nurlar.

Orucov H.X. (2012). Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı: İdrak İB.

Həsənov Ə.M. (2017). Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. Bakı: Zərdabi.

Hüseynov S.Y. (2012)Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı: Təknur. (176 s.)

Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı. (2011). Bakı: Elm və təhsil.

Вердиева Х.Ю. (1999). Переселенческая политика Российской Империи в северном Азербайджане. Баку: Алтай.

Umudlu V.U. (2004). Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: Elm.

XX əsr Azərbaycan tarixi. (2009). II cild. Bakı: Təhsil Nəşriyyat-Poliqrafiya.

Əhədov A.F. (1991). Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr.

Səmədov E.M. (2009). Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması. Bakı: Səda nəşriyyatı.

Yunusov A.S. (2004). Azərbaycanda İslam. Bakı: Zaman.

***д.ф.т. Джейхун Мамедов***

## ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫЕ ОТНОШЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД ЦАРСКОЙ РОССИИ

## РЕЗЮМЕ

В статье рассматриваются государственно-религиозные отношения в Азербайджане в период Царской России и государственная политика, реализуемая в этой области. Отмечается, что этот этап является одним из самых сложных и болезненных периодов в истории Азербайджана.

Также в статье говорится о том, что религиозная деятельность, проводимая Царской Россией, после оккупации ею Азербайджана, стала составной частью ее колониальной политики, и, что принципы Царской России, связанные с тем, чтобы не дать возможности созданию здесь национального государства, еще больше укрепить свои форпосты, и, чтобы аппарат колониального управления как можно больше грабил Северный Азербайджан, осуществлялись на основе этнической и религиозной ревности.

Также в статье дается подробная информация о том, что создание армянского государства на азербайджанских землях является давним планом Российской Империи, а также некоторых европейских государств и они поэтапно осуществляют грязную работу, связанную с ее реализацией.

Отмечаются работа, проделанная с целью «русификации» и «христианизации» азербайджанцев, политика «переселения», а также дискриминация в отношении представителей различных регионов и верующего населения, ограничение их прав и привилегий, преследования, изгнания и казни.

В статье дается подробная информация о документах, принятых в период Царского Правительства, правах религиозного духовенства на учебу, обязанностях учреждений шейх-уль-исламства и муфтията и отражается деятельность нашей интеллигенции, внесшей вклад в науку и культуру Азербайджана в этот период.

В заключение подчеркивается, что, несмотря на все усилия Царского Правительства, азербайджанский народ не отошел от своих традиций, религиозных убеждений и сохранил свои духовные ценности.

***Ключевые слова:*** *Царская Россия, политика, религиозное убеждение, запрет, Ислам.*

***Assist. Prof. Jeyhun Mammadov***

## STATE-RELIGION RELATIONS IN AZERBAIJAN DURING TSARIST RUSSIA

## SUMMARY

The article talks about the relations between the state and religion in Azerbaijan and the state policy implemented in this sphere during Tsarist Russia. It is noted that this stage was one of the most difficult and painful periods in the history of Azerbaijan.

It deals with the transformation of the Tsarist Russia's religious activity after the occupation of Azerbaijan into an integral part of the policy of colonialism, plundering as much as possible of Northern Azerbaijan by the colonial administration, not allowing the creation of a national state, making

the principles of strengthening its forposts even with more ethnic-religious jealousy.

It also widely states that the creation of an Armenian state on Azerbaijani lands was a long-term plan of the Russian Empire, as well as some European countries, and that step-by-step perfidious efforts have been made to implement this policy.

The article notes the works done for the purpose of "Russification" and "Christianization" of Azerbaijanis, the policy of "resettlement", as well as discrimination against the representatives of different regions, religious people, restriction of their rights and privileges, their persecution, expulsion and execution.

The article provides detailed information on the documents adopted during the Tsarist government, the rights of religious figures to receive education, the duties of sheikh-ul-islam and mufti institutions, and reflects the activities of intellectuals who contributed to the culture and science of Azerbaijan at that time.

Finally, it notes that despite all efforts of the Tsarist government, the Azerbaijani people didn't deviate from their traditions and religious beliefs and could maintain their spiritual values.

***Keywords:*** *Tsarist Russia, policy, religious conviction, prohibition, Islam.*

**Çapa tövsiyə etdi: i.f.d. A.M.Şirinov**